© B.Ə.Budaqov, Ş.K.Əzizov, M.Ə.Abbasova, 2008

# AZƏRBAYCAN COĞRAFİ ADLARININ YARANMASINDA İŞTİRAK EDƏN TOPOFORMANTLARIN TOPONİMİK XƏRİTƏLƏŞDİRİLMƏSİNƏ DAİR

**B.Ə.Budaqov, Ş.K.Əzizov, M.Ə.Abbasova**

*Azərbaycan MEA akad.H.Ə.Əliyev adına Coğrafiya İnstitutu*
*AZ1143, Bakı, H.Cavid prosp., 31*

Azərbaycanda ilk dəfə olaraq statistik göstəricilər, cədvəllər və formant üsulu əsasında coğrafi adların 1: 1500 000 miqyaslı toponimik xəritələri tərtib olunmuş, onların məzmununa təsir göstərən amillər təhlil edilmişdir.Toponimik xəritələrin məzmun elementlərinin seçimi, generalizasiyası xəritənin təyinatından, miqyasından və mövzusundan asılı olaraq dəyişir.Toponimlərin tərkibində iştirak edən coğrafi termin və formantların mənşəyi, dil mənsubiyyəti, növü və onların coğrafi paylanması (sıxlığı) tədqiq edilmişdir.

Toponimikanın tədqiqat obyekti olan coğrafi adlar (toponimlər) öz əksini müxtəlif məzmunlu xəritələrdə tapır. Toponimlərin dinamikasını izləmək üçün tarixi və coğrafi xəritələrdən geniş istifadə olunur. Coğrafi adların xəritələşdirilməsi məsələləri (toponimik xəritələrin tərtib olunması) kartoqrafiya elmi ilə sıx əlaqədə həyata keçirilir.

Toponimik materialın ümumiləşdirmə dərəcəsindən asılı olaraq toponimik xəritələr analitik, kompleks və sintetik toponimik xəritələrə ayrılır (E.M.Pospelov, 1971). Analitik toponimik xəritələr daha çox tərtib olunur. Bu xəritələrin tərtibində əsas məqsəd müəyyən əlamətlərə görə ayrılan müxtəlif həcmli toponimik sıraları, toponimik hadisənin coğrafi yerləşməsini və sıxlığını göstərməkdir.

Məzmunundan asılı olmayaraq toponimik xəritələrin tərtibi üçün tədqiqatın məkan sərhədlərinin təyin olunmasında iki tədqiqat üsulundan (areal və regional) istifadə olunur. Bunların seçimi tədqiqatın məqsəd və vəzifəsindən asılıdır. Areal üsulunun tətbiqində başlıca məqsəd toponimik areallarin üzə çıxarılması, müqayisəsi, əlaqələrin və qanunauyğunluqların aşkar edilməsidir. Məsələn, Moldaviya Respublikasının coğrafiya atlasında (1978) verilmiş toponimik xəritələrdə coğrafi terminlərin və coğrafi adların paylanması əsasən areal üsulu ilə göstərilmişdir.

Toponimik xəritələşdirmədə regional yanaşma bütün toponimlərin tədqiqini, inzibati sərhədlər (ölkə,vilayət, rayon və s.) və ya təbii sahələr üzrə (çaylar, düzənlik, təbii vilayət və s.) aparılmasını nəzərdə tutur. Regional tədqiqatlar müxtəlifdilli və yaşlı coğrafi adların cəmini müəyyən ərazi bölgüləri üzrə öyrənmək məqsədi daşıyır. Buna misal olaraq regional toponimik tədqiqatlar əsasında Qırğızıstan Respublikasının coğrafiya atlasına (1987) daxil edilmiş coğrafi adların inzibati rayonların sərhədləri daxilində paylanmasını əks etdirən toponimik xəritələri göstərmək olar.

Toponimiyanın öyrənilməsində istifadə olunan tədqiqat üsulları (regional və areal) arasında sıx əlaqə vardır. Məsələn, regional tədqiqatın məlumatları əsasında, bir tərəfdən, toponimik areallar təyin olunur, digər tərəfdən, müəyyən regionun coğrafi adlarının təhlili zamanı coğrafi terminlərin, formantların ayrı-ayrı areallarda yerini və əlaqəsini aydınlaşdırmaq zərurəti yaranır.

Məlumdur ki, coğrafi əsasın (yaşayış məntəqələri, relyef, hidroqrafik şəbəkə, bitki örtüyü, sərhədlər, sahil xətti və s) düzgün seçilməsi toponimik xəritələrin keyfiyyəti üçün mühüm əhəmiyyət kəsb edir. Coğrafi əsasın vacibliyi xəritənin xüsusi məzmununun yerləşdirilməsində özünü göstərir, buna görə toponimlərin ərazi bölgüləri (kənd, qəsəbə, rayon və s.) üzrə coğrafi paylanmasının qanunauyğunluqlarını, məhəlli elementləri ilə olan əlaqələrini aşkar etmək olar. Coğrafi əsasın yükü çox sadələşdirilmiş olsa belə, o, hadisənin ərazi paylanması haqqında aydın və dəqiq təsəvvür yaratmaqla yanaşı, onu məlum məhəlli elementlərinə bağlamalıdır. Geniş oxucu kütləsi üçün tərtib olunan xəritələrdə daha seyrək coğrafi əsas verildiyi halda, elmi tədqiqat vasitəsi olan toponimik xəritələrdə coğrafi əsasın müfəssəl təsviri vacib şərtdir.

Miqyas toponimik xəritələrin məzmununa öz təsirini göstərir. Bunu nəzərə almaqla, xəritənin miqyasını elə seçmək lazımdır ki, orada əks olunan coğrafi adları təfərrüatı ilə göstərmək mümkün olsun.

Bütün hallarda məzmun elementlərinin seçimi, müəyyən dərəcədə onların generalizasiyası xəritənin təyinatından, miqyasından, mövzusundan, hansı hadisənin göstərilməsindən və hansı zamana təsadüf etməsindən asılıdır. Toponimik xəritələrin coğrafi əsasının tərtibatında tarixilik prinsipini nəzərə almaq mütləqdir. Bu müddəa toponimika elmində artıq bir qayda kimi qəbul olunmuşdur (Nikonov, 1964; Pospelov, 1971; Murzayev, 1982 və s.). Məsələn, inzibati rayon mərkəzləri coğrafi əsasın başqa elementlərinə nisbətən daha çox göstərilir. Lakin bu mərkəzlərin göstərilməsini ancaq müasir toponimiyanın xəritələşdirilməsində düzgün hesab etmək olar. Keçmiş əsrlərin toponimiyasını əks etdirən xəritələrdə isə o dövrdə mövcud olan yaşayış məntəqələrinin coğrafi adları öz əksini tapmalıdır.

Toponimik xəritələrdə coğrafi əsasın elementlərindən relyefin və çay şəbəkəsinin rolu çox böyükdür. İnsanların həyatına ciddi təsir göstərən bu təbii elementlər əhalinin miqrasiyası istiqamətini müəyyən etməkdə, məskunlaşma və təsərrüfat fəaliyyəti ili bağlı olaraq coğrafi adların yaranmasında müstəsna əhəmiyyətə malikdir. Bu səbəbdən dağlıq ərazilər üçün tərtib olunan toponimik xəritələrdə relyefin və çay şəbəkəsinin göstərilməsi zəruridir.

Xəritənin mövzusu onun coğrafi əsasına öz təsirini göstərir. Məsələn, hidronimlər xəritəsində çay şəbəkəsinin tam dolğunluqla göstərilməsini, yaşayış məntəqəsi adlarının xəritələşdirilməsi isə yaşayış məntəqələrinin özlərinin ətraflı təsvirini tələb edir. Toponimlərin təbii şəraitlə bağlı olan semantik xüsusiyyətlərinə görə tərtib olunan xəritələrdə təbii elementlərin - çay şəbəkəsinin, relyefin, təbii mərzlərin-meşənin, bataqlığın, şoranlığın, qumluqların və s. gostərilməsinə ehtiyac yaranır. Yerli coğrafi terminlərin xəritələşdirilməsi də bu elementlərlə əlaqəli olduğu üçün onlar da kifayət qədər ətraflı göstərilməlidir.

Tematik xəritələrin tərtibi zamanı istifadə olunan kartoqrafik təsviredilmə üsulları toponimik xəritələrin məzmununun təsvirində də tətbiq edilir: miqyassız şərti işarələr, keyfiyyət fonu, areal, hərəkət xətləri, kartodiaqram və kartoqram. Bu günə qədər Azərbaycan toponimikasının xəritələşdirilməsi məsələsi ilə bir neçə tədqiqatçı məşğul olmuşdur (Məmmədova, 1984; Nuriyev, 2003; Məmmədov, 2003) və onların tərtib etdikləri toponimik xəritələrdə miqyassız şərti işarələr, kartodiaqram və kartoqram üsulu daha çox tədbiq edilmişdir.

Rrespublikamızda başa çatdırılan toponimik tədqiqatların, toponimik fondun (Azərbaycan SSR-in izahlı coğrafi adları lüqəti.1960; Azərbaycan toponimləri. 2000; Budaqov, 1981; Budaqov, Qeybullayev, 2004; Yüzbaşov və b., 1972) mövcud olmasına baxmayaraq, toponimik landşaftın xəritələşdirilməsi, yəni atlas və xəritələrin tərtibi, hazırlanması vəziyyəti qənaətbəxş deyil. Buna görə Azərbaycan toponimiyasının növlərinə (oykonim, oronim, hidronim və s.), ad verilmə səbəblərinə, dil mənsubiyyətinə və toponimlərin tərkibində iştirak edən coğrafi terminlərə, formatlara görə toponimik xəritələrin tərtib olunmasına xüsusi ehtiyac duyulur.

Bizim araşdırmamızda, ilk dəfə olaraq, Azərbaycan toponimiyasında oykonim, oronim, hidronimlər və onların tərkibində iştirak edən topoformantların xəritələşdirilməsi məsələsi əsas məqsəd kimi qarşıya qoyulmuşdur. Formant tədqiqat üsulu (Manakov, 2006) vasitəsilə coğrafi əsası vahid olan toponimik xəritələr tərtib olunmuşdur[1]. Bu xəritələr öz məzmununa və mahiyyətinə görə coğrafi xəritələrdən fərqlənir. Onların tərtibində toponimin növünün, sayının, dil mənsubiyyətinin aşkar edilməsi başlıca rol oynayır. Eyni zamanda, oykonim formantların sayını, növünü, dil mənsubiyyətini, respublika ərazisində coğrafi paylanmasını göstərən cədvəllər tərtib olunmuşdur. Bu cədvəllər toponimik xəritələrin hazırlanmasında qiymətli mənbə rolunu oynayır.

Məqalədə Azərbaycan oykonimiyası (rəsmən mövcud olan 4551 yaşayış məntəqəsinin adı) və onların tərkibində iştirak edən topoformantların xəritələşdirilməsində «Azərbaycan Respublikası inzibati-ərazi bölgüsü» kitabı tədqiqat obyekti olaraq əsas götürülmüşdür. Oykonimlərin tərkibində iştirak edən: 1) **coğrafi terminlər** ( kənd, oba, binə, qışlaq, qazma, yurd, qala və s. – məsələn, Abadkənd k. (Salyan r-nu), Çobankənd k. (Gədəbəy r-nu), Qayakənd k., Suduroba k., Bədirqala k. (Qusar r-nu), Türkoba k. (Masallı r-nu), Dombabinə k. (Zaqatala r-nu), Padarqışlaq k. (Ağsu r-nu), Otqışlaq k. (Kəlbəcər r-nu), Çorçorbinə k., Şambulbinə k. (Balakən r-nu), Qızılqazma k. (Dəvəçi r-nu), Küsnətqazma k. (Quba r-nu), Çuxuryurd k. (Şamaxı r-nu), Örənqala k.

[1] Coğrafi adların format üsulu ilə statistik təhlilində və toponimik xəritələrin tərtibində AMEA Coğrafiya Institutunun xəritəçilik və informasiya şöbəsinin əməkdaşları İ.E.Mərdanov, O.Y.Mirzazadə, İ.Ə.Kazımova, X.İ.Məmmədovanın böyük əməyi olmuşdur.

(Beyləqan r-nu), 2) **topoformantlar** (-abad, -var, -stan, -gah, -di,-kəran, -xana və s.—məsələn, Şəmsabad k. (Ağdaş r-nu), Musavar k. (Lerik r-nu), Gülüstan k. (Goranboy r-nu), Qalagah k. (Quba r-nu), Vənədi k. (Lerik r-nu), Türkəkəran k. (Lənkəran r-nu), Vəzirxana k. (Kəlbəcər r-nu), 3) **şəkilçilər** (-lar, -lər, -lı, -li, -lu, -lü, -çı, -çi, -çu, -çü, -ca, -cə və s.) – məsələn, Kosalar k. (Qazax r-nu), Bağbanlar k., Umudlu k., Küdürlü k. (Ağdam r-nu), Rəncbərlər k., Mehrablı k. (Ağcabədi r-nu), Ələkçi k., Qalaça k. (Laçın r-nu), Dəvəçi şəh., Çarxaçu k. (Quba r-nu), Şükürçü k. (İsmayıllı r-nu)) sayına, növünə, dil mənsubiyyətinə görə təhlil edilmişdir və toponimik xəritələrin tərtib edilməsi üçün zəmin yaranmışdır.

İlkin toponimik xəritə oykonimlərin tərkibində iştirak edən və oykonimin tipini bildirən coğrafi termin və topoformantlar əsasında tərtib edilmişdir (1-ci şəkil). Bu xəritəyə mövcud oykonimlərin tərkibində iştirak edən, sonu kənd termini ilə – 168, oba komponenti -92, abad-59, qışlaq-57, binə-29, tala-32, qala-13, qazma-8, məhlə-11, yataq-7, pəyə-5, dam-9, yurd-5, oymaq-3, ağıl komponentli-2 oykonim daxil edilmişdir. Toponimik xəritədə oykonim tipi bildirən terminlərlə bərabər, oykonimlərin tərkibində iştirak edən qeyri-milli – gah, -gəh, -di, -kəran, -stan, -xanı, -xana, -dar, -daran, -ru, -rud, -çeşmə, -honi, -dizə, -tük, -var, -van, -xur, -ux, -mux, -ka, -ovka və s. topoformantlar da öz əksini tapmışdır. Bunlara misal olaraq aşağıda qeyd olunan coğrafi adları göstərmək olar: Xanagah k. (Quba r-nu), Pirgah k. (Balakən r-nu), Vələdi k., Haftoni k., Dastatük k., Şiləvar k. (Lənkəran r-nu), Toradi k. (Ağstafa r-nu), Gülüstan k. (Goranboy r-nu), Suraxanı k. (Ağsu r-nu), Ərəbxana k. (Kürdəmir r-nu), Yekəxana k. (Göyçay r-nu), Cindar k. (Quba r-nu), Nardaran k. (Qobustan r-nu), Çayrud k. (Lerik r-nu), Təngərud k. (Astara r-nu), Zardoni k. (Lerik r-nu), Oruc Dizə k. (Babək r-nu), Ərkivan qəs. (Masallı r-nu), Qəmərvan k. (Qəbələ r-nu), Əsəxur k., Şirvanovka k. (Qusar r-nu), Mamrux k. (Zaqatala r-nu), Slavyanka k. (Qədəbəy r-nu), İvanovka k. (İsmayıllı r-nu) və s.

Oykonim topoformantlarına aid digər xəritə müstəqil məna daşımayan formantlar – şəkilçilər (-lı, -li, -lu, -lü, -lar, -lər, -çı, -çi, -çu, -çü, -ca, -cə, -laq, -lək və s.) əsasında tərtib edilmişdir. Şəkilçi formantlar əsasında tərtib olunmuş xəritə oykonimlərin yaranmasında geniş yer tutan, məkan və nəsli mənsubiyyət bildirən şəkilçilərin bölgələr üzrə coğrafi yayılmasını əyani şəkildə göstərir (2-ci şəkil) .

Azərbaycan mənşəli şəkilçi topoformantların xəritələşdirilməsi onların bəzi regionlar və rayonlar üzrə paylanmasının daha çox sıxlığını, digər ərazilərdə isə seyrək olduğunu aşkarladı. Məsələn, Azərbaycan toponimiyasında -lı, -li, -lu, -lü və s. ilə bitən oykonimlərin yayılma arealları eyni deyildir. -li, -li, -lu, -lü, -lıq, -lik, -luq, -lük şəkilçi formantları şəxs adlarında nəsli mənsubuyyət bildirməklə, eyni zamanda, bitкi və heyvan adları ilə bağlı yaranmış oykonimlərdə «məkan», «yer» mənasında işlənir (məsələn, Almalı k. (Qax və Daşkəsən r-ları), Almalıq k., Boyaqlı k. (Kəlbəcər r-nu), Alçalı k. (Kəlbəcər və Salyan r-ları), Arduşlu k., Ərikli k., Qozlu k., Baldırqanlı k. (Laçın r-nu), Vələsli k., Üzümlü k. (Dəvəçi r-nu), Mamırlı k. (Tərtər r-nu), Qaraqatlı k., Şamlıq k. (Tovuz r-nu), Əzgilli k. (Zaqatala və Xanlar r-ları), İncilli k., Darılıq k. (Cəlilabad r-nu), Sumağallı k. (İsmayıllı r-nu), Havarlı k. (Yevlax r-nu), Narlıq k. (Sabirabad r-nu); Canavarlı k. (Bərdə r-nu), Ceyranlı k. (Dəvəçi r-nu), Dovşanlı k. (Kəlbəçər r-nu), Xoruzlu k. (Tərtər r-nu), İlanlı k. (Qobustan r-nu), Turaclı k. (Qax r-nu), Bildirçinli k. (Tərtər r-nu), Ördəkli k. (Zəngilan r-nu) ).

-Laq/dax, -lək/dək şəkilçiləri «məkan», «yer» mənasında bir sıra oykonimlərin yaranmasında iştirak edir (məsələn, Qumlaq k. (Oğuz və Cəbrayıl r-ları), Duzlaq k. (Yevlax r-nu), Güzdək qəs. (Abşeron r-nu), Keşdək k. (Kəlbəcər r-nu) və s.

-Lan (məkan) şəkilçili sözlərdən yaranmış oykonimlərə az təsadüf edilir: Naftalan qəs., Zəngilan r-nu, Şüvəlan qəs., Bizlan k. (İsmayıllı r-nu) və s.

-Lar, -lər, -an şəkilçiləri (mənsubluq, aidlik funksiyasını yerinə yetirir) ilə formalaşan oykonimlər də az deyildir (məsələn, Hacılar k. (Gədəbəy, Tovuz, Laçın və Xaçmaz r-ları), Məliklər k. (Dəvəçi r-nu), Hacıalılar k. (Gədəbəy və Şəmkir r-ları), Rzalar k. (Ağdam r-nu), Şərifan k. (Zəngilan r-nu), Fərəcan k. (Laçın r-nu) və s.

-Çı, -çi, -çu, -çü şəkilçiləri sənət, peşə, məşğuliyyət növünü bildirən oykonimlərdə daha çox təsadüf olunur (məsələn, Axtaçı k. (Sabirabad və Kürdəmir r-ları), Sabunçu k. (Zaqatala r-nu), Dəmirçi k. (Şamaxı, Masallı və Şərur r-ları), Bostançı k. (Xaçmaz r-nu), İlxıçı k. (Ağsu və Xaçmaz r-ları), Arabaçı k. (Gədəbəy r-u) və s.




**1-ci şəkil.** Azərbaycan oykonimlərinin tərkibində iştirak edən termin topoformantlarının dil mənsubiyyətinə görə paylanması xəritəsi




**2-ci şəkil.** Azərbaycan oykonimlərinin tərkibində iştirak edən Azərbaycan mənşəli şəkilçi topoformantların paylanması xəritəsi

-Çı, -çu, şəkilçiləri bəzi hallarda tayfa, nəsil mənsubiyyəti daşıyır (Qazançı k. (Goranboy, Zəngilan, Ağdam və Culfa r-ları), Quşçu k. (Daşkəsən, Yevlax və Şamaxı r-ları) və s.)

-Ca, -cə şəkilçiləri oykonimlərin tərkibində ərazinin səciyyəvi xüsusiyyətlərini əks etdirir (məsələn, Qızılca k. (Laçın, Xanlar və Culfa r-ları), Sarıca qəs. (Şəki r-nu), Güllücə k. (Ağdam r-nu), Yellicə k. (Kəlbəcər r-nu), Yarımca k. (Tərtər, Xızı və Babək r-ları) və s.

Araşdırmalar göstərir ki, inzibati rayonlar arasında Kiçik Qafqazın şimal yamacında yerləşən Tovuz, Şəmkir, Gədəbəy, Daşkəsən rayonlarının, həmçinin tarixi Qarabağ zonasında Ağdam, Bərdə, Kəlbəçər, Şuşa, Laçın, Qubadlı, Zəngilan, Cəbrayıl və Füzuli rayonlarının ərazisində oykonimlərin tərkibində iştirak edən Azərbaycan mənşəli şəkilçi formantların sayının xüsusilə çox olması toponimik xəritədə də öz əksini tapmişdır. Formant şəkilçilərin Qarabağ regionunda üstünlük təşkil etməsi nəsil adlarının geniş yer tutması və ərazinin zəngin landşaft xüsusiyyətləri ilə bağlıdır.

Böyük Qafqazın cənub-şərq hissəsində (Qobustanda, Abşeron yarımadasının qərbində) oykonimlərin və topoformantların seyrək olması yaşayış məntəqələrinin azlığı ilə bağlıdır.

Naxçıvan MR-in hüdudlarında oykonimlərin tərkibində iştirak edən Azərbaycan mənşəli şəkilçi topoformantların nisbətən azlığını formant oykonimlərinin daha çox yayılmasıyla izah etmək olar. Belə oykonimlərə aşağıdakıları misal göstərmək olar (Xok k., Zeyvək k., Dizə k., Xurs k., Aza qəs., Dər k., Bist k. və s.).

Bütövlüklə Azərbaycan Respublikası üzrə ümumi toponimik fon azərbaycancadır. Bu baxımdan oykonimlərin və onların tərkibində iştirak edən topoformantların paylanmasında Azərbaycan mənşəli topoformantların sayı böyük üstünlük təşkil edir. Yalnız bəzi rayonların ərazisində (məsələn, Qusar, Balakən, Zaqatala, Astara, Lerik, Yardımlı və s.) bu fonun tərkibinə digər mənşəli (Qafqaz, İran və s.) coğrafi adlar və topoformantlar qatılır. Bu səbəbdən Böyük Qafqazın cənub yamacında və Astara, Lerik, Yardımlı rayonlarının ərazisində Azərbaycan mənşəli topoformantların sıxlığı nisbətən azalır.

Beləliklə, Azərbaycan oykonimlərinin – oykonim topoformantlarının xəritələşdirilməsi, topoformantların respublika ərazisində coğrafi paylanmasını əyani şəkildə göstərməklə, Azərbaycan toponimiyasının tədqiqində müstəsna əhəmiyyət daşıyır.

İlk dəfə olaraq, müasir Azərbaycan xəritəşünaslığında zəngin informasiya yükü daşıyan yeni toponimik xəritələrin tərtib edilməsi xalqımızın tarixi coğrafiyasının öyrənilməsində qiymətli məxəz rolunu oynaya bilər.

## ƏDƏBİYYAT

AZƏRBAYCAN SSR-in izahlı coğrafi adlar lüğəti. 1960. Elm, Bakı.

AZƏRBAYCAN TOPONIMLƏRI. Ensiklopedik lüğət. 2000. Azərbaycan Ensiklopediyası. NPB. Bakı.

BUDAQOV, B.A., QEYBULLAYEV, Q.Ə. 2004. Naxçıvan diyarının yer yaddaşı. Nafta-Press, Bakı.

MƏMMƏDOV, N.G. 2003. Azərbaycan Respublikası oronimlərinin təsnifatı və formalaşmasının əsas qanunauyğunluqları. Dokt.disser. avtoreferatı. Bakı.

MƏMMƏDOVA, X.İ. 1984. Azərbaycan SSR-in bəzi oykonim formantları xəritəsinin tərtibinə dair. *Azərbaycan SSR EA Xəbərləri.Yer elmləri seriyası*, 6, 79-86.

NURİYEV, E.B. 2003. Toponimik xəritələrin tərtibinə dair. *«Azərbaycanda geodeziya və kartoqrafiyanın inkişafı perspektivləri» mövzusunda II elmi-praktik konfransın materialları*. Bakı, 98-100

YÜZBAŞOV, R.M., ƏLİYEV, K.H., SƏDİYEV, Ş.M.1972. Azərbaycanın coğrafi adları (oçerklər). Maarif. Bakı.

БУДАГОВ, Б.А., ВОРАШИЛ, Г.Л. 1981. Принципы исследования топонимии Азербайджанской ССР. В: *Материалах докладов науч. конф., посвященной изучению топонимии Азерб. ССР*. Элм, Баку, 3-5.

МАНАКОВ, А.Г. 2006. Топонимическое районирование европейской части России, Белоруссии и Украины на основе формантного метода. *Известия РАН. Сер. геогр.*, 2, 120-131.

МУРЗАЕВ, Э.М. 1982. География в названиях. Наука, Москва.

НИКОНОВ, В.А. 1964. Пути топонимического исследования. Принципы топонимики. Наука, Москва. 58-86.

ПОСПЕЛОВ, Е.М. 1971. Топонимика и картография. Мысль, Москва.